Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

İLHAM RƏHİMLİ

# AZƏRBAYCAN TEATR ENSİKLOPEDİYASI

ÜÇ CİLDDƏ

## II CİLD

Azərbaycan Milli
Kitabxanası

BAKI – 2017



## MƏHLUQƏ SADIQOVA

*(28.4.1917, Şuşa – 15.8.2003, Bakı). Aktrisa.*

Üslub və forma, məzmun və mahiyyət, estetik dəyər və psixoloji tutum baxımından bütün janrlarda hazırlanmış tamaşalarda iştirak edib. Ancaq uğurları daha çox xarakterik səhnə surətlərinin ifasında qazanıb.

Məhluqə Ələsgər qızı Sadıqova 1935 – 1936-cı illərdə Bakıda Qədirli adına Tibb Məktəbində oxuyub. Tibb məktəbinin özfəaliyyət dərnəyində həvəskar aktrisa, müğənni və rəqqasə kimi çıxış edib. Müsabiqə yolu ilə 1936-cı ildə Milli Dram Teatrına aktrisa götürülüb və 1992-ci ilə kimi bu kollektivdə çalışıb. 1992 – 2003-cü illərdə Bakı Bələdiyyə Teatrında işləyib. Xalq artisti, rejissor Ələsgər Şərifovun həyat yoldaşı idi. 21 iyul 1949-cu ildə Azərbaycan Respublikasının Əməkdar artisti və 10 yanvar 1978-ci ildə Xalq artisti fəxri adları ilə təltif olunub.

*Azərbaycan dramaturqlarının əsərlərinin tamaşalarında ifa etdiyi əsas rollar:* Cəfər Cabbarlının dramlarında: Turac («Dönüş»), Sona («1905-ci ildə»), Yaxşı («Almaz»), Pəri («Solğun çiçəklər»), Gülüş («Sevil»), Nadya («Oqtay Eloğlu»), Səməd Vurğunun mənzum pyeslərində: Gülnar və Hərəmxana qarısı («Vaqif»), Məryəm və Fitnə («Fərhad və Şirin»), Mehriban («Xanlar»), digər dramaturqların əsərlərində: Yasəmən («Eşq və intiqam», Süleyman Sani Axundov), İnci («Nüşabə», Abdulla Şaiq), Sayad, Səlimə və Şamama cadu («Pəri cadu», Əbdürrəhim bəy Haqverdiyev), Xanpəri, Pəri xanım («Lənkəran xanının vəziri» və «Müsyö Jordan və dərviş Məstəli şah», Mirzə Fətəli Axundzadə), Zəhra, Qadın, Marqo («Şeyx Sənan», «İblis» və «Knyaz», Hüseyn Cavid), Yasəmən («Qatır Məmməd», Zeynal Xəlil), Gülzar («Şərqin səhəri», Ənvər Məmmədxanlı).

*Tərcümə əsərlərində oynadığı səhnə obrazları:* Süd («Göy quş», Moris Meterlinq), Qlasinta («Skapenin kələkləri», Jan Batist Molyer), Qalçixa və Anuşka («Günahsız müqəssirlər», Aleksandr Ostrovs-



***«Solğun çiçəklər», Cəfər Cabbarlı.***
*Pəri – Məhluqə Sadıqova*



***«Şeytanın şagirdi», Bernard Şou.***
*Missis Daycen – Məhluqə Sadıqova*

ki), Konstansiya («Məzəli hadisə», Karlo Qoldoni), Paulina («Qış nağılı», Uilyam Şekspir), Liza («Vassa Jeleznova», Maksim Qorki), Sofiya («Vanya dayı», Anton Çexov), Missis Daycen, («Şeytanın şagirdi», Bernard Şou), Nata xanım («Nazirin xanımı», Branislav Nuşiç), Ana («Şöhrət və ya unudulan adam», Nazim Hikmət), Kabato («Xanuma», Avqsenti Saqareli), Adeliya Maurano («Bu qadın mənimdir», Raymondo Juniyor), Dolores («Qadın faciəsi», Qarsia Lorka).

Məhluqə Sadıqova dramaturq Cəfər Cabbarlının «Solğun çiçəklər» (rejissor Əliheydər Ələkbərov) melodramında Pəri obrazını 400 dəfədən çox və Səməd Vurğunun «Vaqif» (rejissor Ədil İsgəndərov) mənzum romantik dramının tamaşasında Yengə rolunu 800 dəfədən artıq ifa edib. Uzun illər Azərbaycan radiosunda əməkdar artist Səməndər Rzayevlə birlikdə «Bulaq» verilişini aparıblar.

«Bakıda küləklər əsir» (Solmazın anası), «Əgər bir yerdəyiksə» (Mədinə), «Mücrü» (Ana), «Yenilməz batalyon» (Dükan sahibi) bədii flmlərinə çəkilib.

*«Sən yanmasan...», Nəbi Xəzri.*
*Dürdanə – Məhluqə Sadıqova,*
*İnam – Kamal Xudaverdiyev*

